**“Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında insan alverinə, insan orqanları və toxumalarının qanunsuz ticarətinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş”in icrasının təmin edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

1. “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında insan alverinə, insan orqanları və toxumalarının qanunsuz ticarətinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş”in 2-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq, Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan kimi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin 2-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq, səlahiyyətli orqan kimi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin təyin edilməsi barədə Müstəqil Dövlətlər Birliyinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 13 iyun 2006-cı il**
**№ 1506**